# *Təbrik edirik!*

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, sənətşünaslıq üzrə elmlər doktoru, professor Ceyran Mahmudovaya**

**Hörmətli Ceyran xanım,**

Sizi və rəhbərlik etdiyiniz Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) kollektivini ali təhsil ocağının fəaliyyətə başlamasının 100 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirik!

ADMİU-nun ölkəmizin zəngin ənənələrə malik ali təhsil müəssisələrindən biri, elm və mədəniyyət ocağı kimi təhsilimizin və mədəniyyətimizin inkişafında özünəməxsus rolu vardır. ADMİU fəaliyyət göstərdiyi bir əsr ərzində milli mədəniyyətin və incəsənətin tərəqqisinə mühüm töhfələr vermişdir. Azərbaycanın görkəmli mədəniyyət və incəsənət xadimlərinin arasında çoxlu sayda ADMİU məzunu vardır. Regionda nüfuzlu ali təhsil ocağı olan universitetin yetirmələri hazırda Azərbaycanla yanaşı, ölkəmizin hüdudlarından kənarda da uğurla fəaliyyət göstərirlər.

ADMİU öz fəaliyyətində dövlətin mədəniyyət və incəsənət sahəsindəki prioritetlərini, milli dəyərləri, eyni zamanda müasir inkişaf meyillərini nəzərə alaraq sahə üzrə bütün istiqamətlərdə çeşidli ixtisaslar üzrə ali təhsilin bütün səviyyələrində yüksək keyfiyyətli kadr hazırlığını həyata keçirir. Universitet, eyni zamanda bir çox ölkədaxili və beynəlxalq mədəniyyət-incəsənət mərkəzləri ilə əlaqələrə malikdir. Bütün bunların məntiqi nəticəsidir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Universitetin 100 illik yubileyinin keçirilməsi ilə bağlı Sərəncam imzalamışdır.

İnanırıq ki, fəaliyyətinin növbəti yüzilliyinə qədəm qoyan ADMİU bundan sonra da Azərbaycan və dünya mədəniyyətinin, incəsənətinin tədqiqi, öyrədilməsi və təbliğində öncüllərdən olacaq, fəaliyyət spektrini daha da genişləndirəcəkdir.

**Hörmətli Ceyran xanım,**

Bir daha Sizi və rəhbərlik etdiyiniz kollektivi əlamətdar yubiley münasibətilə səmimi-qəlbdən təbrik edir, fəaliyyətinizdə yeni uğurlar arzulayırıq!

**Dərin hörmətlə,**

**ADPU-nun rektoru** **professor Cəfər Cəfərov**